# Sülhməramlıların növbəti minik avtomobili Laçın-Xankəndi yolundan maneəsiz keçib





Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edirlər.

AZƏRTAC xəbər verir ki, Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus növbəti minik avtomobilinin aksiya ərazisindən maneəsiz keçməsinə şərait yaradılıb. Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər.

Qeyd edək ki, bunda əlavə, dünən səhər saatlarında Rusiya sülhməramlılarına məxsus minik avtomobili Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edib.

Azərbaycan. - 2022.- 29 dekabr.- S.14.